# Şəhidlər torpağa gömülmür, könüllərə köç edirlər

***Sənan Nizami oğlu Ağazadə Vətən müharibəsində Qarabağın azadlığı naminə oddan-alovdan keçərək Zəfər tariximizdə silinməz iz qoydu.***

Qəhrəman Vətən oğlu Lənkəran rayonunun Göyşaban kəndində anadan olmuşdu. Azərbaycan Silahlı Qüvvələrin əsgəri Füzuli rayonu uğrunda gedən ağır döyüşlərdə qəhrəmancasına canını Vətəninə, torpağına fəda edəndə ömrünün 20-ci baharına qədəm qoymuşdu. Milyonların ürəyində mərdlik, igidlik simvoluna çevrilən Sənan Ağazadə ölümündən sonra Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilibdir.

Şəhid Sənanın sevdalandığı Vətən adlı sevgilisinin sinəsinə baş qoyub qovuşduğu məkan kənd qəbiristanıdır. İndi bu, müqəddəs yer həm də bütün Göyşaban kənd camaatı üçün and yeridir. Bu günlərdə isə Lənkəran Regional Mədəniyyət İdarəsinin və Mədəniyyət İşçiləri Həmkarlar İttifaqının Lənkəran rayon Komitəsinin kollektivi buraya gələrək şəhidin məzarını ziyarət etmişlər, daha sonra onun ailəsinə baş çəkmişlər. Söhbət əsasında bildirilib ki, Vətən yolunda əbədiyyətə qovuşanlar xalqın ən əziz övladları sayılır. Şəhid Nazim ürəklərdə yaşamaqla, heç vaxt unudulmaz. Belə mərd övlad böyüdüb tərbiyə edən ata-anaların yanında olmaq, onların şərəfini yüksək tutmaq biz vətəndaşların borcudur. Şəhidlər torpağa gömülmür, könüllərə köç edirlər.



Şəhidin bacısı Xəyalə Lənkəran MKS-nin Göyşaban kənd kitabxana filialında kitabxanaçıdır. O, nümunəvi xidmətinə görə Azərbaycan Respublikası Mədəniyyət Naziri cənab Anar Kərimovun əmrinə əsasən 2 Fevral-Gənclər günü münasibətilə fəxri fərmana layiq görülmüşdü. Lənkəran Regional Mədəniyyət İdarəsinin rəisi Vüsal Nəsirli həmin fəxri fərmanı şəhidin bacısına təqdim etmişdir.

***Zəfər Orucoğlu, AJB üzvü***